*Təhsil hər bir dövlətin gələcəyidir. Biz fəxr edirik ki, Azərbaycanda savadlılıq, təxminən, 100 faizdir. Bu, çox böyük göstəricidir. Elə etməliyik ki, bütün uşaqlar savadlı, bilikli olsunlar, gələcəkdə özləri üçün gözəl həyat qura bilsinlər, dövlətimiz üçün dəyərli vətəndaşlar olsunlar. Ona görə təhsilin keyfiyyəti indi ön plana çıxır. Bu istiqamətdə də islahatlar aparılır. Eyni zamanda, müəllimlərin fəaliyyətini stimullaşdırmaq üçün islahatlar aparılır. Müəllimlərin əməkhaqları qaldırılır.*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***



# Azərbaycan təhsili yeni dərs ilinə müasir standartlarla başladı

**Ulu öndər Heydər Əliyevin hələ ötən əsrin 70-ci illərində təməlini qoyduğu yeni dərs ili ərəfəsində təhsil müəssisələrinə baş çəkmək, müəllim və şagirdlərlə görüşmək ənənəsi bu gün də uğurla yaşadılır. Dövlət başçımızın sentyabrın 12-də Suraxanı rayonundakı 101 nömrəli, ertəsi günü həmin rayondakı 208 nömrəli orta məktəblərdə yaradılan şəraitlə tanış olması, Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin açılışında iştirak etməsi məhz həmin ənənənin yaşadılması idi. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Kürdəxanı qəsəbəsindəki 113 nömrəli məktəbdə yenidənqurmadan sonra yaradılmış şəraitlə tanış olması da təhsil sektorunun dövlətin daimi diqqət mərkəzində olduğunun göstəricisi kimi qiymətləndirilir.**





Maddi-texniki bazanın yeniləşdirilməsi, müəllimlərin fəaliyyətinin stimullaşdırılması, daim davam edən islahatlar ölkə təhsilinin inkişafına güclü təkan verir. Mütəxəssislər yazırlar ki, Azərbaycan təhsilinin bugünkü inkişafı ümummilli lider Heydər Əliyevin işləyib hazırladığı dövlət quruculuğu siyasətindən qaynaqlanır. Prezident İlham Əliyev tərəfindən təhsil sahəsində sistemli islahatların aparılması ümummilli liderin təhsil siyasətinin uğurla davam etdirilməsi deməkdir. Fakt isə ondan ibarətdir ki, təhsil konsepsiyasının müddəaları yüksək dəqiqliklə həyata keçirilir.

Elə buradaca bəzi konkret faktları yada salaq. Son 15 ildə 3200-dən çox məktəb inşa edilib, əsaslı təmir olunub, yeni tədris korpusları tikilib və ya tam yenilənib. 2018-2019-cu tədris ili ərəfəsində də paytaxtda əsaslı təmir edilmiş müəssisələr istifadəyə verilib. Bir çox məktəblərin açılış mərasimlərində Prezident İlham Əliyev şəxsən iştirak edib. Yaxud, 2015-ci ildə ölkə Prezidentinin "Dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin dərs yükünün və əməkhaqqının artırılması haqqında" Sərəncamına əsasən, müəllimlərin diaqnostik qiymətləndirilməsi başa çatdırılıb, onların həftəlik dərs yükü 1,5 dəfə, vəzifə maaşı 2 dəfə artırılıb.

Məhz ona görə də indi ölkədə müəllim nüfuzu gündən-günə artır. Yeri gəlmişkən, müəllim nüfuzunun artması barədə deyilən sözlərin məhz söz yox, həqiqət olduğunu təhsil işçilərinin ənənəvi respublika konfransında geniş məruzə ilə çıxış edən təhsil naziri Ceyhun Bayramov da konkret faktlarla yada saldı. Nazir bildirdi ki, bu il məktəblərə qəbul zamanı 500-dən çox bal toplayan abituriyentlərin 25 faizi müəllimlik ixtisasını seçib. Bu isə müəllim peşəsinin rəqabətliliyi, təhsilin keyfiyyəti haqqında müsbət proqnozlar söyləməyə imkan verir.

Konfransda səsləndirildi ki, həyata keçirilən bütün tədbirlər cəmiyyətdə işə qəbulun obyektivliyinə inam formalaşdırıb. Ona görə də 2019-cu ildə müsabiqədə iştirak edənlərin sayı əvvəlki illərə nisbətən xeyli artıb, müraciət edənlərin sayı 55 mini ötüb. Ümumilikdə, son 5 ildə məktəblərin müəllim tərkibi keyfiyyət baxımından yaxşılaşıb, 20 mindən çox gənc müəllim işə qəbul olunub. Milli təhsilimizin "qızıl fondu" adlandırılan yaşlı müəllimlərin müraciəti və razılığı ilə gənc müəllimlərə – informasiya texnologiyalarının köməyi ilə dünya təhsil prosesindəki yeniliklərlə dərhal tanış ola bilən mütəxəssislərə üstünlük verilməsi son nəticədə təhsil sektorumuzun müasirləşdirilməsini təmin edir.

Bundan başqa, " Ölkə təhsili dövlətin və Prezidentin daimi diqqət mərkəzindədir" – ifadəsi də yüz dəfə ölçülüb, bir dəfə biçilmiş qənaətdir. Bu qənaəti həmin sahədə aparılan islahatlar, dövlət proqramları, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın təsdiq edilməsi, həmçinin "Bakı şəhərində və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi və təmiri ilə bağlı tədbirlər haqqında", "Azərbaycan Respublikasında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar tədbirlər haqqında", "Dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin əməkhaqqının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamları bir daha təsdiq edir.

Başqa bir məqamı da, xüsusilə vurğulamaq zərurəti ortaya çıxır. Belə ki, müasir təhsilimizin uğurlarından, məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsindən danışarkən, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın xidməti və rolu xüsusilə qeyd edilməlidir. Bu il Heydər Əliyev Fondunun xətti ilə 14 yeni məktəb binasının tikintisi, 8 məktəbin əsaslı təmiri həyata keçirilir. Bu, danılmaz faktdır ki, "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində inşa edilən və müasir avadanlıqla təchiz olunan məktəblər Heydər Əliyev Fondunun reallaşdırdığı çoxistiqamətli tədbirlərin parlaq nümunəsidir.

Təhsil işçilərinin sentyabrın 11-də keçirilən respublika konfransında 2019–2020-ci dərs ilinin prioritet istiqamətləri və qarşıda duran hədəflər barədə ətraflı söz açılaraq qeyd edilib ki, dövlət siyasətində təhsil sisteminin maddi-texniki bazasının müasirləşdirilməsinə və yeni şəraitin yaradılmasına xüsusi diqqət yetirilir. Təkcə 2019-cu ildə 50-si modul tipli olmaqla 84 yeni təhsil müəssisəsinin tikintisi və əsaslı təmiri həyata keçirilir. Bu təhsil müəssisələrindən 43-ü sentyabr ayının 15-nə qədər təhvil verilmişdir. Digər 41 məktəbdə işlər ilin sonuna qədər yekunlaşacaq. Nazir xatırladıb ki, 2003-2018-ci illər ərzində ölkədə 3200-dən artıq yeni məktəb binası tikilib və ya əsaslı təmir olunub. Nəticədə bir milyondan çox şagirdin təlim-təhsil şəraiti əhəmiyyətli şəkildə yaxşılaşıb.

Ancaq təhsil sektorumuzun yeni dərs ilinə müasir standartlarla getdiyini söyləyərkən başqa bir faktı da yada salmalıyıq. Belə ki, sentyabrın 1-də qüvvəyə minən Prezident sərəncamı nəticəsində müəllimlərin orta aylıq əməkhaqqı təxminən 600 manatı keçib. Bu artımdan sonra ümumtəhsil sistemində çalışan 5 mindən çox müəllimin əməkhaqqı 1000 manatdan yüksəkdir.

Bu sətirləri Prezident İlham Əliyevin Bakının Sabunçu rayonundakı 311 nömrəli tam orta məktəbin yeni binasının açılış mərasimindəki nitqindən götürdüyümüz sitatla tamamlamaq istəyirik. Çünki dövlət başçısı həmin nitqində təkcə təhsilin keyfiyyətindən, məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsindən deyil, həm də daha mühüm olan bir məsələdən söz açıb:

"Bizim gənc nəslimiz vətənpərvər olmalıdır, milli ruhda böyüməlidir. Burada da əlbəttə ki, müəllimlərdən çox şey asılıdır. Gənclərin həm ailələrdə, həm məktəblərdə milli ruhda tərbiyə alması xüsusi əhəmiyyət daşıyır. Xüsusilə indiki şəraitdə ki, dünyada müxtəlif proseslər gedir, qloballaşma adı ilə faktiki olaraq eyniləşmə siyasəti aparılır, kütləvi informasiya vasitələri ilə müxtəlif təxribatlar ortaya atılır. Ona görə, Azərbaycan cəmiyyəti bundan sonra da çox möhkəm, milli, mənəvi dayaqlar əsasında inkişaf etməlidir. Bu gün bu, belədir. Bu gün bizim siyasətimizin təməlində milli maraqlarımız, milli dəyərlərimiz, Azərbaycan dəyərləri dayanır. Bu dəyərlər hər bir Azərbaycan vətəndaşı üçün hər şeydən üstün olmalıdır. Elə etməliyik ki, gələcək nəsil də bu istiqamətdə inkişaf etsin. Ona görə, vətənpərvərlik, Vətənə olan bağlılıq, milli-mənəvi dəyərlər məktəblərdə mütləq geniş vüsət almalıdır, müəllimlər də bu istiqamətdə daha fəal iş aparmalıdırlar. Xüsusilə nəzərə alsaq ki, xalqımız çox istedadlı xalqdır, dünya xəzinəsinə çox böyük töhfələr veribdir, tarix boyu bizim görkəmli nümayəndələrimiz dünya üçün böyük işlər görmüşlər".

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***